**AZƏRBAYCAN RESPUBLİKASI**
**ELM və TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

# ÜSLUBİYYAT

***Bakalavriat səviyyəsi üçün***

**B a k ı – 2023**

**Proqram ADPU-nun Azərbaycan dilçiliyi kafedrasında hazırlanmışdır.**

**Elmi redaktor:** **MAHİRƏ HÜSEYNOVA**
*filologiya elmləri doktoru, professor*

**Tərtib edənlər:** **İRADƏ KƏRİMOVA**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

**SEVİNC SADIQOVA**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

**Rəyçilər:** **KÖNÜL HƏSƏNOVA**
*filologiya üzrə fəlsəfə doktoru*
**KİFAYƏT İMAMQULİYEVA**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

# İZAHAT VƏRƏQİ

Azərbaycan Dövlət Pedaqoji Universitetinin 2020-ci ildə təsdiqlənmiş tədris planına əsasən, “Üslubiyyat” fənni Filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyyat müəllimliyi ixtisası üzrə bakalavriat pilləsində 45 saat (15 saat mühazirə, 30 saat seminar) həcmində, VII semestrdə tədris olunacaqdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2013-cü il 10 aprel tarixli “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında sərəncamı dilçiliyin, onun ayrı-ayrı şöbələrinin, bölmələrinin, müasir standartlara cavab verən araşdırmaların aparılmasını, proqram, dərslik və dərs vəsaitlərinin yenidən hazırlanmasını zəruri etmişdir. Bu sərəncamın tələblərindən və ADPU-da yeni tədris planının təsdiqlənməsindən irəli gələrək ***Üslubiyyat*** fənninin də proqramının yenidən hazırlanaraq təkmilləşdirilməsi zərurətini meydana gətirmişdir. Proqram fənn kurikulumlarının tələblərinə uyğun hazırlanmış, bir sıra mövzular dəqiqləşdirilmiş, üslubiyyatla bağlı yeni ədəbiyyatlar proqrama daxil edilmişdir. Qeyd etmək yerinə düşər ki, müasir dövrün tələbinə uyğun olaraq, müasir dünya təhsilinə inteqrasiya edən Azərbaycan təhsil sistemi də yenilənir, ayrı-ayrı fənlərin tədrisində yeni kurikulumun tələbləri ödənilir. Təhsil islahatlarının mərhələlərinin ardıcıllığını (I–1999-2003 öyrədici-innovativ mərhələ; II–2004-2007 hazırlıq mərhələsi; III–2008-2013 tətbiqetmə mərhələsi) nəzərə alaraq, bu sistemin ali təhsil müəssisələrində də tətbiq edilməsi zərurəti meydana

çıxmış, bu hal tədris proqramlarının hazırlanmasına zəmin yaratmışdır. Fənn kurikulumlarının spesifik cəhətlərinin müqayisəli təsviri: ənənəvi təhsil proqramından fərqli olaraq müasir kurikulum şəxsiyyət yönümlüdür, nəticə yönümlüdür, tələbə yönümlüdür, inteqrativlik əsas prinsip kimi qəbul edilmiş və qiymətləndirmə standartları, mexanizmləri müəyyən olunmuşdur.

**Təhsil proqramının sonunda məzun aşağıdakı ümumi kompetensiyalara yiyələnməlidir:**

- İxtisası üzrə ən azı bir xarici dildə kommunikasiya bacarığına;
- Üslubiyyatın elmi əsasları və müasir elm dünyasındakı yeri və roluna dair sistemli və hərtərəfli biliklərə, milli dövlətimizin perspektiv inkişafını proqnozlaşdırma bacarığına;
- Ölkəmizə və dövlətçiliyimizə qarşı yönəlmiş təzyiqləri müəyyən etmək bacarığına;
- İş yerində informasiya texnologiyalarından istifadə etmək bacarığına;
- Məsələlərin həlli yolunda əlavə məlumat resurslarını müəyyənləşdirmək və seçə bilmək bacarığına;
- İxtisası üzrə nəzəri bilikləri və dilçiliyimizin tarixi köklərini əks etdirən fikirlər yürütmək qabiliyyətinə;
- Yeni şəraitə uyğunlaşmaq, təşəbbüs irəli sürmək bacarığına və uğur qazanmaq iradəsinə;
- Peşəkar fəaliyyətini planlaşdırmaq, təşkil etmək, gələcək təhsilini və mövcud bacarıqlarını inkişaf etdirmək, vaxtı məqsədlərinə görə idarə etmək, verilən tapşırıqları zamanında yerinə yetirmək bacarığına;

- Şəxsi fəaliyyətində sosial-ekoloji məsuliyyətə, eləcə də vətəndaş şüuru, etik yanaşma və keyfiyyətə üstünlük vermə qabiliyyətinə;

- Bilik və bacarığını inkişaf etdirmək məqsədilə vəziyyəti və özünü yenidən qiymətləndirmək və özünütənqid qabiliyyətinə.

**Təhsil Proqramının sonunda məzun aşağıdakı peşə kompetensiyalarına yiyələnməlidir:**

- Üslubiyyat fənni üzrə qazanılmış bilik, bacarıq və vərdişlərə uyğun olaraq problemlərin həllində iştirak etməyə hazır olmaq qabiliyyətinə;

- Təlim prosesini ümumi təhsilin Azərbaycan dili fənni üzrə dövlət standartlarının tələblərinə uyğun olaraq təşkil etmək bacarığına;

- Azərbaycan dili dərslərinin tədrisində (fonetika, leksika, morfologiya, sintaksis) Üslubiyyat fənninin materiallarından istifadə etməklə şagirdlərdə tədqiqatçılıq səriştələrini formalaşdırmaq, mənəvi-əxlaqi inkişafa nail olmaq qabiliyyətinə;

- Fənnin nəzəri və praktik səviyyədə öyrənilməsinin tərkib hissəsi olan psixoloji, pedaqoji, didaktik, kommunikativ məsələlərdən anlamaq bacarığına;

- Təhsilalanların istedadının aşkar olunması və inkişafı ilə bağlı distant təlim texnologiyalarından istifadə bacarığına;

- Tədris etdiyi fənnə hazır biliklər toplusu kimi deyil, daimi dərketmə prosesi kimi baxmaq, analiz və sintez etmək qabiliyyətinə;

- Gözlənilən təlim nəticələrinə uyğun olan müvafiq qiymətləndirmə meyarları və metodlardan məqsədli şəkildə seçmək və tətbiq etmək bacarığına;

- Fənnin nəzəri və praktik səviyyədə öyrənilməsinin tərkib hissəsi olan psixoloji, pedaqoji, didaktik, kommunikativ məsələlərdən baş çıxarmaq səriştəsinə;

- Yeni situasiyalara adaptasiya olunmaq, yeni ideyaları generasiya etmək bacarığına;

- Problemli şəraitdə təşəbbüskarlıq göstərmək və məsuliyyəti öz üzərinə götürmək qabiliyyətinə...

**Fənnin hədəfi:**

- Üslubiyyat fənninin əsas hədəfi təhsilalanların – tələbələrin Azərbaycan dilində üslubların yaranması, formalaşması, inkişafı ilə bağlı nəzəri bilik və bacarıqlarını aşkar etmək, tədris ili boyunca əldə etdikləri bilik və vərdişlərin sistematik olaraq anlamalarının təmin olunmasını, əldə etdkləri biliklərdən məntiqi nəticə çıxara bilmək qabiliyyətlərini aşkar etməkdən ibarətdir.

**Fənnin məqsədi:**

- Üslubiyyat elminin təşəkkülü, formalaşması, inkişafı haqqında mükəmməl məlumatların öyrənilməsi istiqamətində biliklərin ardıcıl və sistemli şəkildə formalaşdırılması;

- Azərbaycan dilinin üslublarının inkişafının mərhələlərə bölünməsinin hansı tarixi səbəblərlə əlaqədar olduğunun müəyyənləşdirilməsinin öyrədilməsi;

- Üslubiyyatın inkişafının bütövlükdə dilçilik elmimizin formalaşması ilə müşayiət olunması haqqında biliklərin dərinləşdirilməsi;

- Üslubiyyat problemlərinin həllinə xidmət edən müasir metod və üsulları öyrənib tətbiq etmək və s.

- Fənnin mühüm məqsədlərindən biri də, tələbələrin öyrəndikləri məlumatları kommunikasiya zamanı düzgün istifadə etmələrinə zəmin yaratmaqdan ibarətdir.

- Tələbələrin interaktiv tapşırıqlar vasitəsilə düzgün istifadə metodlarını öyrənmək, onların nəzəri biliklərini üzə çıxarmaqla yanaşı, eyni zamanda tələbələrin təxəyyülünün inkişafına, yaradıcılıq qabiliyyətinin aşkarlanmasına köməklik göstərmək də bu fənnin qarşısında duran başlıca məqsədlərindəndir.

- Daha bir məqsəd isə, fənnin tədrisi zamanı tələbələrin əldə etdikləri biliklərdən istifadə etməklə fikir mübadiləsi və müzakirəsində iştirak etməsini təmin etmək, onların interaktiv fəallıqlarını artırmaq, tələbələri öyrəndikləri mövzulara aid slaydlar və s. hazırlamağa həvəsləndirməkdən, onları müasir təlim metodlarından, yeni texnologiyalardan istifadə etməyə sövq etməkdən ibarətdir.

**Üslubiyyat fənninin təlim nəticələri:**

FTN 1. Qazandığı elmi-nəzəri materialdan istifadə edərək müxtəlif mövzuları təsvir edirlər.

FTN 2. Əməli fəaliyyətdə olan dildən yüksək səviyyədə istifadə etmək bacarığı və vərdişlərinə sahib olurlar.

FTH 3. Azərbaycan ədəbi dilində tarixən mövcud olmuş üslublarda ortaya çıxan faktları müasir dilçilik baxımından təhlil edirlər.

FTH 4. Elmi-nəzəri biliklər dərinləşdirilərək ayrı-ayrı üslublara aid mətnlər üzərində təhlillər aparılmaqla, tələbələrdə analitik təfəkkür inkişaf etdirilir.

FTH 5. Tələbə klassik söz sənətkarlarının yaradıcılığındakı bu və ya digər üslubda yazılmış mətnlərin dili ilə müasir dil arasındakı oxşar və fərqli cəhətləri ayırd etməyi öyrənir.

FTN 6. Üslubiyyatın monumental məsələlərini öyrənirlər.

FTN 7. Fənnin tədrisi zamanı innovativ metodlardan istifadə edərək müasir standartlara uyğun qiymətləndirmə aparılır.

**Qiymətləndirmə metodları:**

Üslubiyyat fənninin tədrisi zamanı tələbə yönümlüyə xidmət edən müxtəlif qiymətləndirmə formalarından istifadə edilə bilər. Məsələn:

- yazı işləri
- test tapşırıqları
- müzakirələr
- frontal və fərdi sorğu
- qrup işləri və digər.

Lazım gəldikdə qiymətləndirmə üsul və formaları birləşdirilə, yeniləri ilə əvəzlənə bilər.

**Fənnin tədrisində istifadə olunacaq təlim və öyrənmə metodları:**

Müntəzəm şəkildə həyata keçirilən innovativ öyrənmə metodları tətbiq edilərək, daim nəzarətdə saxlanılaraq təkmilləşdirilməlidir. Fənnin tədrisi zamanı istifadə edilən tədris və öyrənmə metodlarına, təxminən, aşağıdakıları nümunə göstərmək olar:

- Praktiki tapşırıqlar (daha çox istifadə olunur)
- Təqdimatlar, müzakirələr (daha çox istifadə olunur)

- Müstəqil iş, araşdırma, esse (daha çox istifadə olunur)
- Qrup yarışmaları
- Cütlərlə iş
- Hesabatlar
- Video və audio seminarlar
- Stimulyasiyalar
- Qrup qiymətləndirməsi və s.

Fənnin tədrisi zamanı nəzəri və tətbiqi məsələlər arasında nisbətin gözlənilməsinə də diqqət yetirilməlidir.

**Üslubiyyat fənninin təsviri:**

Üslubiyyat fənni tələbələri böyük bir tarixi dövrün təhlili, ayrı-ayrı dövrlərdə yazıya alınmış abidələrin üslubi xüsusiyyətləri haqqında məlumatları mənimsəməyə, dilimizdəki üslubların tarixi kökləri haqqında dərin elmi biliyə malik olmağa yönəldir.

**Kursun məzmunu:**

"Üslubiyyat" fənninin tədrisi zamanı auditoriya dərslərinin həcmini nəzərə alaraq üç modula bölmək məqsədəuyğundur. Hər modulun sonunda aralıq imtahanı və bir sərbəst iş yerinə yetirilməlidir. Mövzuların aşağıdakı şəkildə təqdim edilməsi məqsədəuyğundur:

**I MODUL**

**Mövzu 1: "Üslubiyyat" fənninin mövzusu, məqsədi və vəzifələri, digər fənlərlə əlaqəsi.** "Üslubiyyat" fənninin dilçilik fənləri sistemində yeri, mövzusu, məqsədi, vəzifəsi, həcmi və quruluşu. Üslub və üslubiyyat. Üslubiyyat və onun növləri. Üslubiyyatın

başlıca anlayış və kateqoriyaları. Sinonimlik üslubiyyatın bünövrəsi kimi. Üslubiyyatın əsas istiqamətləri: a) dil vahidlərinin üslubi imkanlarının öyrənilməsi; b) funksional üslubların tədqiqi istiqaməti. "Üslubiyyat" fənninin digər fənlərlə əlaqəsi.

**Mövzu 2: Üslubi fonetika.** Fonetik-üslubi vasitələr və onların iki təzahür forması. Həm yazıda, həm də şifahi nitqdə istifadə oluna bilən vasitələr. Ahəng qanununun üslubi-fonetik mahiyyəti. Ortaqlı fonetik üslubi vasitələr: sövti-təqlid sözləri, sövti-təsvir sözləri, nida sözləri, ahəng qanununa tabe olmayan sözlər, vəznə və qafiyəyə uyuşdurmalar, alliterasiya. Səslərin məna çalarlığı. Xüsusi fonetik-üslubi vasitələr. Ancaq tələffüzdə istifadə oluna bilən vasitələr. Tələffüz ahəngdarlığı və asanlığı: tələffüzdə temp, sürət, fasilə və durğunluq. Üslubi fonetik tədqiqatların qarşısında duran vəzifələr.

**Mövzu 3: Üslubi leksika: sinonim, omonim və antonim sözlərin, frazeologizmlərin üslubi imkanları.** Üslubi leksika. Sözün əsas üslubi rəngləri: 1) Sözün əsas mənası; 2) Sözün məna çalarlığı; 3) Sözün ekspressiv-emosional rəngi. Ümumişlək sözlər və xüsusi sözlər. Terminoloji sözlərin müxtəlif üslublarda işlənilmə imkanları – məqamı. Xüsusən bədii üslublarda dialektizm, jarqonizm, adi danışıq və loru danışıq sözlərinin işlənilməsinin üslubi xüsusiyyətləri. Müxtəlif üslublarda arxaizm, neologizm, mahiyyətli sözlərin işlənilməsi və üslubi məqamları. Alınma sözlərin üslubi məqamla əlaqədar olaraq yerli və yersiz işlənilməsi. Üslubi məqamlarda sinonim, omonim, antonim sözlərdən, frazeologizmlərdən istifadə, bunların məcazi mənalılıq

mahiyyəti. Üslubi onomastika. Üslubi leksika sahəsində qarşıda duran vəzifələr.

**İnteqrativ tapşırıqlar:**

Mövzular üzrə hazırlanmış test tapşırıqları üzrə iş;

Üslubiyyat ilə əlaqədar problem situasiyalar və onlarla bağlı müzakirələr;

Üslubi fonetika sahəsi üzrə aparılan tədqiqatlarla bağlı məlumatlar üzərində iş, bu prosesdə qarşıya çıxan problemlər və onların həllinin müzakirəsi;

Üslubi leksika sahəsi üzrə aparılan tədqiqatlarla bağlı məlumatlar üzərində iş, bu prosesdə qarşıya çıxan problemlər və onların həllinin müzakirəsi;

**II MODUL**

**Mövzu 4: Üslubi morfologiya. Nitq hissələrinin üslubi imkanları.** Morfoloji imkanlar. Bəzi morfoloji vahidlərin üslubi məhdudluğu. Morfoloji vahidlərin üslubi sinonimliyi və üslubi təhkimliyi. İsmin morfoloji vahidləri və üslubi məqamları. Xüsusi isimlərin üslubi xüsusiyyətləri. İsimlərdə kəmiyyət: çoxluq, topluluq, təklik. Cəm şəkilçisi *-lar,-lər* və bu şəkilçisinin üslubi məqamlarda müxtəlif məna çalarlığında işlənməsi. İsmin halları və üslubi imkanları. Xüsusən, yiyəlik, yerlik çıxışlıq hallarının məna çalarlıqları və üslubi məqamdan asılı olaraq onların şəkilçili, həm də şəkilçisiz işlənilməsinin üslubi mahiyyəti. Mənsubiyyət kateqoriyası, üslubi baxımdan şəkilçili və şəkilçisiz işlənmə məqamları. Mənsubiyyət şəkilçisinin söz birləşməsində müəyyən sözlərin ixtisarına şərait yaratması.

Sifətin morfoloji ünsürləri və üslubi imkanları. Sinonim sifətlər və üslubi məqamdan asılı olaraq onların sinonimləşməsi. Sifətlərin sinonim morfemləri və sifətin dərəcələrinin üslubi məqamları. Sifətlərin quruluşca üslubi imkanları və sadə, düzəltmə, mürəkkəb sifətlərin sinonimlik məqamları.

Sayların morfoloji ünsürləri və üslubi imkanları. Miqdar saylarının müxtəlif birləşmələr halında işlənərək üslubi məqamlarda müxtəlif məna çalarlıqlı miqdar anlayışlarını ifadə etməsi. Sayların *-lar,-lər; -ca,-cə; -larca, -lərcə* şəkilçilərini qəbul edərək işlənilməsinin üslubi məqam və məna çalarlığı. Sıra və kəsr saylarının sinonimlik məqamları. "Bir" sayının üslubi məqamdan asılı olaraq say mənasını itirib başqa mənada işlənilməsi.

Əvəzliyin morfoloji ünsürləri və üslubi imkanları. Şəxs əvəzlikləri, onların üslubi məqamdan asılı olaraq ekspressivlik və sinonimlik xüsusiyyətləri. "Öz" əvəzliyinin şəxs əvəzlikləri ilə sinonimliyi və müxtəlif məna çalarlıqlarında işlənilmə məqamları. İşarə əvəzliklərinin üslubi məqam və məna çalarlıqları. Sual əvəzliklərinin üslubi məqamı: ekspressivlik, məna çalarlıqları. Sinonim və antonim əvəzliklərinin üslubi məqamları.

Feilin morfoloji vahidləri və üslubi imkanları. Feilin zamanları və üslubi məqamda sinonimlik xüsusiyyətləri. Feilin şəkilləri (formaları) və üslubi məqamda bir-birini əvəzetmə imkanları. Feillərdə xahiş, əmr, arzu, məsləhət ifadə etmək üçün istifadə olunan vahidlərin üslubi məqamları. Feilin növ kateqoriyasının üslubi imkanları və variantları. Feillərdə şəxs bildirən morfemlərin üslubi məqamlarda işlənilməsi. Feillərdə şəxs və kəmiyyət bildirən morfemlərdən (cəm və təklik bildirən

şəkilçilərdən) üslubi məqamlardan istifadə, şəxs sonluqlarının və şəxs əvəzliklərinin ixtisarına şərait yaratmasının üslubi mahiyyəti.

Köməkçi nitq hissələrinin (qoşma, bağlayıcı, ədat, modal sözlər) üslubi imkanları. Qoşmaların və bağlayıcıların bəzi şəkilçiləri əvəz etməklə sinonimlik məqamında işlənilməsi.

Üslubi morfologiya sahəsindəki əsərlərin xülasəsi və qarşıda duran vəzifələr.

**Mövzu 5: Üslubi sintaksis: söz sırası və cümlənin üslubi imkanları.** Sintaktik vahidlərin üslubi imkanları. Müxtəlif üslubların, xüsusən elmi, bədii və publisistik üslubun sintaktik əlamətdar ünsürləri. Söz birləşmələrinin üslubi imkanları. Söz birləşmələrini təşkil edən vahidlərin arasında başqa bir sözün, ifadənin yerləşdirilməsinin üslubi məqamı. Sadə cümlənin üslubi imkanları. Cümlə üzvləri və üslubi məqamla əlaqədar olaraq onların sıralanması. Şəxsli-ümumi şəxsli, qeyri-müəyyən şəxsli və şəxssiz cümlələrdə sinonimlik. Adlıq cümlənin üslubi məqamları. Məqsəd və intonasiyaya görə cümlə növlərinin üslubi məqamları. Təktərkibli və cüttərkibli cümlələrdə mübtəda ilə xəbərin uzlaşması və uzlaşmaması hallarının üslubi məqamı. Mübtədanın üslubi tələbatla əlaqədar olaraq zəruri və qeyri-zəruri (ixtiyari, formal) işlənilmə məqamları. Xəbərin sinonimlik ifadələri və üslubi məqamları. Geniş cümlələrdə ikinci dərəcəli üzvlərin sinonimlik xüsusiyyətləri. Cümlə üzvlərinin qanuni sırası və üslubi məqamla əlaqədar olaraq cümlə daxilində yerini dəyişməsi.

Mürəkkəb cümlənin üslubi imkanları. Mürəkkəb cümlənin növləri və istifadə məqamları. Tabesiz və tabeli

mürəkkəb cümlələrin müxtəlif üslublarda istifadə məqamları. Tabeli mürəkkəb cümlələrdə bağlayıcı vasitələrdən sinonimlik istiqamətində üslubi məqamlara görə istifadə. Budaq cümlələrdə feili bağlama və feili sifət tərkiblərinin sinonimlik xüsusiyyətləri. Üslubi məqamla əlaqədar olaraq cümlə üzvlərinin və mürəkkəb cümlə hissələrinin yerdəyişməsi və ixtisarı.

Əlavələr: xüsusiləşmiş əlavələrin üslubi məqamları. Xüsusiləşmiş əlavələrin bəzi budaq cümlələrlə sinonimliyi. Ara sözlərin və xitabların üslubi imkanları və müxtəlif üslublarda işlənilmə məqamları.

Üslubi sintaksis sahəsində aparılan tədqiqatlar qarşısında duran vəzifələr.

**İnteqrativ tapşırıqlar:**

Mövzular üzrə hazırlanmış test tapşırıqları üzrə iş;

Üslubi morfologiya sahəsi üzrə aparılan tədqiqatlarla bağlı məlumatlar üzərində iş, bu prosesdə qarşıya çıxan problemlər və onların həllinin müzakirəsi;

Üslubi sintaksis sahəsi üzrə aparılan tədqiqatlarla bağlı məlumatlar üzərində iş, bu prosesdə qarşıya çıxan problemlər və onların həllinin müzakirəsi.

**III MODUL**

**Mövzu 6: Ədəbi dilin funksional üslubları: ədəbi danışıq üslubu, elmi üslub.** Funksional üslub meyarı. Funksional üslubların yaranması və onların formalaşmasına xüsusi təsir göstərən amillər.

Ədəbi danışıq üslubu. İstifadə dairəsi, janrları, mikroüslubları, dil əlamətləri, etnolinqvistik əlamətləri.

Elmi üslub. Bu üslubun bədii üslubdan sonra formalaşmağa başlaması, tarix boyu geniş təkmilləşmə və zəngləşmə yolu keçməsi. İstifadə dairəsi, janrları; mikroüslubları, dil əlamətləri: a) lüğət tərkibi sahəsində; b) morfoloji dil əlamətləri. 1. Adətən, feillərə nisbətən isimlərin çox istifadəsi. 2. Beynəlxalq xarakterli sözlər yaradan morfemlərə geniş yer verilməsi.

Sintaktik əlamətləri: 1.Mürəkkəb cümlələrdən, sintaktik konstruksiyalardan geniş istifadə olunması; 2.Xüsusi ifadələrin tez-tez işlənilməsi; 3.Elmi sitatlara geniş yer verilməsi. Ekstralinqvistik əlamətlər.

**Mövzu 7: Bədii, publisistik və epistolyar üslub.** Bədii üslub. Öz xüsusiyyət və əlamətləri ilə olduqca obrazlı, emosional və ekspressiv olması, başqa funksional üslublara nisbətən, xalq danışıq dilinə daha yaxın olması. İstifadə dairəsi, janrları, mikroünsürləri, dil əlamətləri:

a) fonetika sahəsində;

b) lüğət tərkibi sahəsində söz və ifadə seçməkdə, söz və ifadələrin işlədilməsində;

c) qrammatika sahəsində.

Publisistik üslub. Bünövrəsi XIX əsrdə milli mətbuatımızın meydana çıxması ilə qoyulan bu üslubun xüsusi mövqeyi və əhəmiyyətli olması. İstifadə dairəsi, janrları, mikroüslubları, dil əlamətləri.

Üslublar sistemində ədəbi dilin publisistik funksional üslubunun daha çox sadəliyi, yığcamlığı, kütləviliyi, kəskinliyi və təsirliliyi ilə seçilməsi.

Epistolyar üslub. Bu üslubun tarixinin müxtəlif növ məktubların meydana çıxması əsasında yaranıb formalaşması. İstifadə dairəsi, janrları, dil əlamətləri.

**Mövzu 8: Rəsmi-işgüzar üslub. Üslubi əlaqələr.** Rəsmi-işgüzar üslub. Azərbaycan ədəbi dilinin rəsmi-işgüzar funksional üslubunun, əsasən, XIX əsrdə, yəni milli ədəbi dilin sabitləşməsi dövründə formalaşmağa başlaması. İstifadə dairəsi, janrları, mikroüslubları, dil əlamətləri. Üslubların qarşılıqlı əlaqəsi.

**İnteqrativ tapşırıqlar:**

Azərbaycan ədəbi dilinin funksional üslubları ilə bağlı aparılan tədqiqatlara aid fikirlər, bu sahədə görülməli olan işlər barədə fikir mübadiləsi;

Ədəbi dilin funksional üslubları ilə bağlı görülməli olan praktik işlər barədə fikir mübadiləsi;

Azərbaycan ədəbi dilinin üslublarının yaranması, formalaşması ilə bağlı fikirlər, nəzəriyyələr haqqında fikir mübadiləsi;

Esselərin hazırlanması və fikir mübadiləsi;

Azərbaycan ədəbi dilinin ayrı-ayrı üslublarına aid ilk nümunələrin yaranması ilə bağlı mövcud fikirlərin ümumiləşdirilməsi və testlərin hazırlanması.

## Mövzular üzrə təlim nəticələri:

1. Üslubiyyat fənninin mövzusunu bilir, məqsəd və vəzifələrini tanıyır.
2. Üslubi fonetika, üslubi leksika, üslubi morfologiya və üslubi sintaksis barədə məlumatları bilir, bu sahələrin tədqiqatçılarını tanıyır.
3. Üslubiyyat ilə bağlı aparılmış tədqiqatları bilir, bu sahənin mütəxəssislərini tanıyır.

4. Azərbaycan ədəbi dilinin funksional üslubları üzrə aparılmış tədqiqatlar barədə biliklərə yiyələnir, bu sahə üzrə tədqiqat aparmış dilçi alimləri tanıyır.
5. Üslubların qarşılıqlı əlaqəsi barədə məlumatları bilir, bu sahədə aparılan tədqiqatlardan xəbərdardır.

**Məşğələlərin mövzular üzrə bölgüsü**
**Kursun tədrisinə 3 kredit, 45 saat verilir.**

**Fənnin tədris tematik planı:**
**Mühazirə - 15 saat**

| sıra №-si | Mövzular | saat |
|---|---|---|
| 1 | "Üslubiyyat" fənninin mövzusu, məqsəd və vəzifələri, digər fənlərlə əlaqəsi | 2 |
| 2 | Üslubi fonetika | 2 |
| 3 | Üslubi leksika: sinonim, omonim, antonim sözlərin, frazeologizmlərin üslubi imkanları | 2 |
| 4 | Üslubi morfologiya, nitq hissələrinin üslubi imkanları | 2 |
| 5 | Üslubi sintaksis: söz sırası və cümlənin üslubi imkanları | 2 |
| 6 | Ədəbi dilin funksional üslubları: ədəbi danışıq üslubu, elmi üslub | 2 |
| 7 | Bədii, publisistik və epistolyar üslub | 2 |
| 8 | Rəsmi-işgüzar üslub. Üslubi əlaqələr | 1 |

| | | |
|---|---|---|
| | **Cəmi:** | **15 s.** |

**Seminar – 30 saat**

| **sıra №-si** | **Mövzular** | **saat** |
|---|---|---|
| **1** | **“Üslubiyyat” fənninin mövzusu, məqsəd və vəzifələri, digər fənlərlə əlaqəsi** | **2** |
| **2** | **Üslub anlayışı, üslubiyyatın başlıca kateqoriyaları** | **2** |
| **3** | **Üslubi fonetika** | **2** |
| **4** | **Üslubi leksika: ümumişlək sözlərin, xüsusi sözlərin, terminlərin, dialektizmlərin üslubi imkanları** | **2** |
| **5** | **Arxaik sözlərin, neologizmlərin və alınma sözlərin üslubi imkanları** | **2** |
| **6** | **Omonim, sinonim və antonim sözlərin üslubi imkanları** | **2** |
| **7** | **Üslubi onomastika** | **2** |
| **8** | **Üslubi morfologiya. Budaq morfemlərin və isimlərin üslubi xüsusiyyətləri** | **2** |
| **9** | **Sifət, say və əvəzliklərin üslubi xüsusiyyətləri** | **2** |
| **10** | **Feilin üslubi imkanları** | **2** |
| **11** | **Köməkçi nitq hissələrinin üslubi imkanları** | **2** |
| **12** | **Üslubi sintaksis: cümlə üzvləri və söz sırasının üslubi xüsusiyyətləri** | **2** |
| **13** | **Cümlənin üslubi imkanları** | **2** |

| | | |
|---|---|---|
| **14** | **Ədəbi dilin funksional üslubları** | **2** |
| **15** | **Funksional üslubların qarşılıqlı əlaqə və münasibətləri** | **2** |
| | **Cəmi:** | **30 s.** |

# Ə D Ə B İ Y Y A T

1.Abdullayev S. Dil və bədii qavrayış. Bakı, Yazıçı, 1984, 167 s.
2.Adilov M. Azərbaycan dilində sintaktik təkrarlar. Bakı, Elm, 1974, 233 s.
3.Adilov M. Azərbaycan dilində təqlidi sözlər. Bakı, ADU, 1979, 109 s.
4.Adilov M. Klassik ədəbiyyatımızda dil və üslub. Bakı, Maarif, 1996, 542 s.
5.Adilov M. Məhəmməd Füzulinin üslubu və poetik dili. Bakı, Maarif, 1996, 542 s.
6.Axundov A. Dilin estetikası. Bakı, Yazıçı, 1985, 224 s.
7.Axundov A. Şeir sənəti və dil. Bakı, Yazıçı, 1980, 160 s.
8.Axundov A. Dil və üslub məsələləri. Bakı, Gənclik, 1970, 104 s.
9.Azərbaycan bədii dilinin üslubiyyatı (oçerklər). Bakı, Elm, 1970, 357 s.
10.Bayramov H. Azərbaycan dilinin frazeologiyasının əsasları. Bakı, Maarif, 1978, 176 s.
11.Cavadov Ə. Müasir Azərbaycan ədəbi dilində sintaktik vahidlərin sırası. Bakı, Elm, 1977, 102 s.
12.Dəmirçizadə Ə.Azərbaycan dilinin üslubiyyatı, Bakı, Azərtədrisnəşr, 1962, 272 s.
13.Əfəndiyeva T. Azərbaycan dilinin leksik üslubiyyatı. Bakı, Elm, 1980, 252 s.
14.Əfəndiyeva T.Azərbaycan dilinin üslubiyyat problemləri. Bakı, Nurlan, 2007, 183 s.
15.Əliyev S. Füzulinin poetikası. Bakı, Yazıçı, 1986, 221 s.

16.Hacıyev T. Azərbaycan ədəbi dilinin tarixi. I-II cildlər, Bakı, 2012.
17.Hacıyev T. Klassik aşıq poeziyasının üslubi-poetik sintaksisi. Bakı, 2001, 145 s.
18.Hacıyev T. Şeirimiz. Nəsrimiz. Ədəbi dilimiz. Bakı, Yazıçı, 1990, 360 s.
19.Həsənov H. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı, ADU nəşri, 1999, 268 s.
20.Hüseynova M. XIX-XX əsrlər Azərbaycan aşıq və el şairlərinin əsərlərinin linqvistik təhlili. Bakı, "Avropa", 2018, 420 s.
21.Hüseynova M. Müasir Azərbaycan dili: aşıq və el şairlərinin yaradıcılığının dil və üslub xüsusiyyətləri. Bakı, "Avropa", 2018, 424 s.
22.Hüseynova M. Aşıq və el şairlərinin üslubi sintaksisi. Bakı, Xəzər nəşriyyatı, 2017.
23.Hüseynova H. Mir Cəlalın bədii əsərlərinin dili və üslubu. Bakı, "Elm", 2008, 504 s.
24.Hüseynov M. Poetik frazeologiya. Almatı, Ülağat, 2013, 171 s.
25.Hüseynov M. Dil və poeziya. Bakı, Elm, 2008, 434 s.
26.Hüseynov M. M.İbrahimovun romanlarının dili və üslubu. Nam.dis. Bakı, 1982, 230 s.
27.Xudiyev N. XX əsr Azərbaycan ədəbi dili. BAkı,1986.
28.Xudiyev N.Azərbaycan ədəbi dilinin zənginləşmə yolları. Bakı, 1987.
29.Kazımov Q. Komik bədii vasitələr. Bakı, Yazıçı, 1983, 188 s.
30.Kazımov Q. Qurbani və poetikası. Bakı, ADPU, 1996, 302 s.

31.Kazımov Q. Yazıçı və dil. Bakı, APİ nəşri, 1975, 228 s.
32.Qafarova S. Azərbaycan xalq şeirində bədii üslub. Bakı, Mütərcim, 2006, 161 s.
33.Qurbanov A. Ümumi dilçilik. I-II c., Bakı, 2004.
34.Məmməd A. Dil və üslub. Ədəbi tənqidi məqalələr. Bakı, Azərnəşr, 1958, 448 s.
35.Mirzəyev H. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz. Bakı, 1997, 352 s.
36.Mirzəyev H. Dərələyəz mahalının toponimləri və şivə sözləri. Bakı, Elm, 2003, 536 s.
37.Mirzəyev H. Azərbaycan toponimləri və şivə sözləri. III cild, Bakı, Elm, 2006, 536 s.
38.Mirzəyev H. Dərələyəz folkloru. Bakı, Elm, 2006, 767 s.
39.Mustafayeva Q. Azərbaycan dilinin üslubiyyatı. Bakı, Elm, 2010, 392 s.
40.Süleymanova İ. Frazeologiyanın üslubi imkanları. Bakı, Elm, 2013, 300 s.
41.Tanrıverdi Ə. "Dəli Kür" romanının poetik dili. Bakı, Elm və təhsil, 2012, 247 s.
42.Vəliyev K. Dastan poetikası. Bakı, Yazıçı, 1984, 134 s.

**Mündəricat:**

İzahat vərəqi ........................................................3
Kompetensiyalar ..................................................4
Fənnin hədəfi, məqsədi .......................................6
Fənnin təlim nəticələri ........................................7
Qiymətləndirmə ..................................................8
Fənnin tədrisində istifadə ediləcək təlim və öyrənmə metodları ..............................................................8
Fənnin təsviri .......................................................9
Fənnin məzmunu .................................................9
Mövzular üzrə təlim nəticələri ............................16
Təqvim-tematik plan ...........................................17
Ədəbiyyat siyahısı ..............................................20